# Azərbaycan mülki aviasiyası: keçmişi, bu günü və gələcəyi



**Bəşər övladı özünü dərk edən gündən uçmaq xəyalı ilə yaşayıb. Əsrarəngiz səmaya qalxıb onun sirlərinə vaqif olmaq əcdadlarımızın əbədi arzusu olub. Onlar quş kimi qanad çalıb, səmanın dərinliklərinə baş vurmaq istəyiblər. İnsanın uçmaq arzusu barədə ilk mənbə qədim Şumer rəvayətlərindən qaynaqlansa da, ”Keykavus”, ”Mahabharata”, ”Dedal və İkar” adlı fars, hind və yunan eposlarında, habelə ərəblərin ”Min bir gecə” nağıllarında insanın xəyali uçuşları öz əksini tapıb. Lakin aviasiya tarixini araşdıranlar insanın uçmaq arzusunun reallaşmasını XV əsrdə yaşayıb-yaratmış dahi italyan rəssamı Leonardo da Vinçinin adı ilə bağlayıblar.**

O, ”Mona Liza” (”Cokonda”) kimi dünyaca məşhur sənət əsərləri yaratmaqla yanaşı, gələcək paraşütlərin, planerlərin, digər uçan aparatların eskizlərini də çəkib. Amma bu eskizləri uçan qurğulara çevirmək və səmada süzmək Leonardo da Vinçiyə qismət olmayıb. Yalnız iki yüzillikdən sonra, yəni XVII əsrdə xorvat Faust Vançiç yaratdığı ”Uçan adam” qurğusu ilə Venesiyanı səmadan seyr edə bilib.

## RAYT QARDAŞLARININ KƏŞFİ

Ancaq insan oğlunun uçmaq arzusunu yerinə yetirən təyyarənin kəşfi Orvil və Vilbur Rayt qardaşlarının adı ilə əlaqələndirilir. 1899-cu ildə Rayt qardaşları özlərinin ilk təyyarələrini tərtib ediblər və bu kiçik ikiqanadlı planer çərpələng kimi uçub. Rayt qardaşları uzun müddət quşların uçuşunu müşahidə edərək görüblər ki, quşlar küləyə tərəf uçur və hava onların qanadlarının əyilmiş səthindən ağırlıq yaradaraq keçir. Bundan əlavə, quşlar dönərkən və manevr edərkən qanadlarının forması dəyişir. Qardaşlar düşünüblər ki, onlar bu üsuldan istifadə edərək, qanadın bir hissəsini bükməklə və ya formasını dəyişməklə uçuş aparatına nəzarəti əldə saxlaya bilərlər. Növbəti üç il ərzində Orvil və Vilbur qardaşları həm pilotla, həm də pilotsuz idarə olunan müxtəlif planerlər icad ediblər. Uğurlu planer sınaqlarının ardınca Rayt qardaşları tam ölçülü planer düzəldə biliblər. 1900-cü ildə, özlərinin yeni ikiqanadlı təyyarələrinin həm pilotlu, həm də pilotsuz uçuşlarını həyata keçiriblər. 1902-ci ildə qardaşlar bir neçə dəfə yeni planerdən istifadə etməklə bir sıra uçuşları sınaqdan keçiriblər. Onlar apardıqları tədqiqatlar nəticəsində belə qənaətə gəliblər ki, quyruq sistemindən istifadə etməklə aparatın uçuşunu tənzimləmək mümkündür. Propellerin (pərin) necə işləməsinə dair apardıqları tədqiqatlardan sonra Rayt qardaşları motor düzəldiblər. Yeni təyyarə motorun çəkisinə və titrəyişinə tab gətirə biləcək gücdə idi. Çəkisi 700 funt olan uçuş aparatı ”Flayer” adlandırılıb.

## AVİATOR UTOÇKİN BALAXANI "ŞOSSESİNDƏ"

Dünyanın müxtəlif ölkələrində olduğu kimi, Azərbaycanda da insan oğlunun kəşf etdiyi bu uçuş aparatına maraq böyük olub. Tədqiqatlar göstərib ki, Azərbaycan ictimaiyyətinin aviasiya ilə ilk tanışlığı XX əsrin əvvəllərindən başlayıb. Azərbaycanda ilk təyyarə uçuşları 1910-cu ildə Bakıda həyata keçirilib. Rus aviatoru Utoçkin ”Farman” tipli aeroplanla Balaxanı ”şossesində” 4 gün ardıcıl uçuş həyata keçirib. Bu, Azərbaycanda aerodrom (təyyarə meydanı) məkanında ilk təyyarə uçuşu kimi tarixə düşüb. Həmin hadisədən sonra ölkəmizdə təyyarə uçuşlarının sayı sürətlə artıb və dövri xarakter alıb. 1910-cu ildən başlayaraq, Bakıda və Yevlaxda aerodromlar tikilərək istifadəyə verilib, habelə Bakıda aviamodelçilik fəaliyyəti geniş vüsət alıb. 1918-ci ildə Azərbaycanda Şərqdə ilk dəfə olaraq demokratik respublika elan ediləndən sonra da aviasiyaya maraq böyük olub. Azərbaycan Xalq Cümhuriyyəti (AXC) ölkənin hərbi hava qüvvələrinin yaradılmasını zəruri sayıb və bu istiqamətdə lazımi tədbirlər görməyə başlayıb. General Səməd bəy Mehmandarovun başçılıq etdiyi Hərbi Nazirlik aviasiya sahəsində milli kadrların hazırlanmasını öncül vəzifələrdən biri saydığından 1919-cu ildə Azərbaycanla Gürcüstan arasında hərbi əməkdaşlıq müqaviləsi imzalanıb. Bu sənəd AXC-nin aviasiya siyasətinə də ciddi təkan verib. 1919-cu ildə Azərbaycanın aviasiya tarixində ilk dəfə olaraq, ”transmilli” (uzaq məsafəyə) uçuş həyata keçirilib. Bakı aerodromundan qalxan ”Farman-30” tipli təyyarə Xəzər dənizi üzərindən uçaraq, Türkmənistanın Krasnovodsk şəhərində uğurla yerə enib. Bu hadisədən sonra AXC orduda hərbi aviadəstənin yaradılması barədə də qərar verib.



## BAKI-TİFLİS-BAKI MARŞRUTU

Ancaq 1920-ci ilin may ayında AXC-nin süqutu, Azərbaycanın ruslar tərəfindən işğal olunması milli hökumətin aviasiya siyasətini yarımçıq qoyub. Bununla belə, SSRİ dövründə də zamanın tələbinə uyğun olaraq bu sahədə bir sıra işlərin görülməsinə başlanılıb. 1923-cü ildə ”Muğan Meliorasiya Tikintisi”, ”Xəzər Dəniz Gəmiçiliyi” və ”Azneft”in təsisçiliyi ilə ”ZAKAVİA” Zaqafqaziya Mülki Aviasiya Səhmdar Cəmiyyəti yaradılıb. ”ZAKAVİA”-nın təyyarələrindən aerofotoçəkiliş işləri aparılmasında, təcili yüklərin çatdırılmasında və poçtun daşınmasında istifadə etmək nəzərdə tutulub. Həmin ilin aprel ayından başlayaraq, ”Yunkers” təyyarəsində Bakı-Tiflis-Bakı marşrutu ilə uçuş həyata keçirilib, iki il sonra isə Keşlədə aerodrom tikilib və mülki ”Hava stansiyası” yaradılıb. 1926-cı ildə Mineralnıye Vodı-Qroznı-Mahaçqala-Bakı-Yevlax-Tiflis marşrutları üzrə müntəzəm uçuşlar həyata keçirilməyə başlanılıb.

## AZƏRBAYCANIN İLK AVİASİYA QRUPU

Təyyarəçilərin ixtiyarında olan maşınların mükəmməl olmamasına baxmayaraq, 1929-cu ildə Xarkov-Bakı-Pəhləvi beynəlxalq xətti açılıb. 1933-cü ildə isə ilk dəfə olaraq Qafqaz dağlarının üzərindən Moskva şəhərinə hava yolunun uzunluğunu 1100 kilometr qısaltmış olan uçuş yerinə yetirilib. 1937-ci ildə gündəlik 15 sərnişin daşıyan yerli ”XAİ-1” və ”Stal-3” (Stalğ-3) təyyarələrinin xidmət göstərdiyi Bakı-Moskva istiqamətində müntəzəm marşrut açılıb. Növbəti ildə Bakı-Xarkov, Bakı-Qroznı, Bakı-Rostov, Bakı-Həştərxan, Bakı-Tiflis reysləri işə salınıb, Bakı hava limanı Xalq Komissarları Sovetinin sərəncamı ilə müstəqil təsərrüfat vahidinə daxil edilib. Beləliklə də 2 iyun 1938-ci il tarixində Azərbaycanda ilk aviasiya qrupu yaradılıb. Məhz bu tarix Azərbaycan Prezidenti İlham Əliyevin 2006-cı ildə imzaladığı Fərmanla ölkəmizdə Mülki Aviasiya Günü kimi qeyd olunmağa başlanılıb. Azərbaycanın aviasiyası 1941-ci ildən 1945-ci ilədək ”Hər şey cəbhə üçün” devizi altında çalışıb. İkinci Dünya müharibəsindən sonra Azərbaycan təyyarəçiləri yenidən sülh şəraitində sərnişin və yük daşıyıblar. Bakıdan başlanğıcını götürən hava yollarında yeni ”Li-2”, ”İl-14”, ”İL-18”, ”An-24”, xüsusi təyinatlı ”An-2”, ”Mi-1” və ”Mi-4” helikopterləri görünməyə başlayıb.



## NƏQLİYYATIN ƏN TANINMIŞ SÜRƏTLİ, KOMFORTLU VƏ ƏLVERİŞLİ NÖVÜ

Azərbaycanın mülki hava donanmasının tarixində yeni keyfiyyətli dövr 20-ci əsrin 70-80-ci illərinə təsadüf edir. Bu dövr ərzində Gəncədə, Yevlaxda, Naftalanda, Naxçıvanda, Zaqatalada, Lənkəranda, Ağdamda, Ağstafada və Şəkidə süni örtüklü uçuş-enmə zolaqları ilə təchiz olunmuş hava limanları tikilib. Onlar ”Yak-40” reaktiv təyyarələrini qəbul etmək imkanına malik olublar. Azərbaycanın ümummilli lideri Heydər Əliyevin səyləri nəticəsində avialayner parkı Sovet İttifaqının ərazisində ilk ”Tu-134” və ”Tu-154” reaktiv təyyarələrini, ”Mi-2” və ”Mi-8” helikopterlərini alanlardan biri olub. Həmin illərdə təyyarə nəqliyyatın ən tanınmış sürətli, komfortlu və əlverişli növünə çevrilib. Ancaq Sovetlər Birliyi dağıldıqdan sonra Azərbaycan aviasiyası ağır vəziyyətə düşüb. Kooperasiya əlaqələri pozulub, texniki təchizat kəsilib, təyyarələr köhnəlib və dağılıb, aviasiyadan təcrübəli işçilər gedib, yeni mütəxəssislərin hazırlanması üçün isə yer olmayıb. 1993-cü ildə xalqın təkidli tələbi ilə təkrar hakimiyyətə gətirilən ümummilli lider Heydər Əliyev bu problemi öz nəzarəti altına alıb, mülki aviasiyaya 200 milyon dollardan yuxarı sərmayə qoyulub. Bu, aviaparkı müasir ”Boeing-757” təyyarələri ilə təkmilləşdirməyə, uçuşları idarəetmə vasitələrini yeniləməyə, 20-dək ixtisas üzrə kadrların hazırlanması sistemini yaratmağa və bu gün 60-dan yuxarı aviaşirkətin təyyarələrini qəbul edən beynəlxalq təyyarə vağzalının 1999-cu ildə Bakı şəhərində açılmasına imkan verib.



## DÜNYANIN ONLARLA ŞƏHƏRİNƏ MÜNTƏZƏM UÇUŞLAR

Tikintisi 2005-ci ilin mart ayında başa çatdırılmış Bakı Yük Terminalı (BYT) Bakı şəhərinin qərbdən şərqə və şimaldan cənuba hərəkət edən yüklər üçün yükboşaltma məntəqəsinə çevrilməsinə imkan verib. Elə həmin ildə Bakı Yük Terminalı (BYT) Yerüstü Xidmət üzrə İATA Beynəlxalq Hava Nəqliyyatı Assosiasiyasının üzvü və Beynəlxalq Hava Limanları Şurasının Ümumdünya İşgüzar Partnyorlar Proqramının iştirakçısı olub. Növbəti illərdə ”Naxçıvan” beynəlxalq hava limanı, ”Gəncə” beynəlxalq hava limanı və ”Zabrat” hava limanında yeni təyyarə vağzalının binası istismara verilib, Heydər Əliyev Beynəlxalq Aeroportunda beşulduzlu mehmanxana tikilib. 2008-ci ildə ”Lənkəran” və ”Zaqatala” beynəlxalq hava limanları açılıb. Mülki hava donanmasının tərkibinə ”Aerobus-319”, ”Aerobus-320”, ”ATR-72” və ”ATR-42” avialaynerləri əlavə olunub. Yük təyyarələri üçün nəzərdə tutulmuş parkın üçdə iki hissəsi daha müasir maşınların əldə olunması hesabına yenilənib. Bu gün Azərbaycanın mülki aviasiyası Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) standartlarına uyğundur, ”Azərbaycan Hava Yolları” aviaşirkəti isə İCAO, İATA, ECAC, Dövlətlərarası Aviasiya Komitəsi kimi tanınmış mülki aviasiya birliklərinin üzvüdür. ”Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin təyyarələri dünyanın onlarla şəhərinə müntəzəm uçuşlar yerinə yetirir, ”SW Airlines” yük aviaşirkətinin hava yolları isə bütün qitələrin üzərindən keçməklə yüzə qədər ölkəyə uzanıb.

## GÜC, QÜVVƏT VƏ NÜFUZ GÖSTƏRİCİSİ

Son olaraq qeyd edək ki, bu gün ”AZAL” müstəqil Azərbaycanın mülki aviasiyasının öncülü sırasında yer alıb. Fəaliyyət göstərdiyi ötən illər ərzində əldə etdiyi zəngin təcrübə daxili və xarici aviadaşımaların həyata keçirilməsində özünü etibarlı tərəfdaş kimi göstərib. Bütün dünyada nəqliyyatın elitar və yüksək texnologiyalara əsaslanan seqmenti kimi tanınan, güc, qüvvət və nüfuz göstəricisi olan mülki aviasiya Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğısı sayəsində Azərbaycanda da böyük inkişaf yolu keçib. Özü ilə sərhədlərimizdən min kilometrlərlə uzağa Azərbaycanın bir parçasını daşıyan təyyarələrimiz eyni zamanda ölkəmizdəki coşğun iqtisadi inkişafı, yüksək mədəniyyəti, bənzəri olmayan dəyərlər sistemini, insanların rifah və firavanlığını bütün dünyaya nümayiş etdirir.

**Adəm ABBASLI**
**”Azadinform” İnformasiya Agentliyinin müxbiri**

*Yazı ”Azərbaycan Hava Yolları” (AZAL) QSC və Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim edilir*